**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**

**NAXÇIVAN BÖLMƏSİ**

*Əlyazması hüququnda*

**ELÇİN TƏHMƏZ OĞLU EYVAZOV**

# MİLLİ İQTİSADİYYATIN TƏHLÜKƏSİZLİK SİSTEMİNİN FORMALAŞMASI PROBLEMLƏRİ

İxtisas: 5311.01 – Müəssisələrin təşkili və idarə olunması

iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**NAXÇIVAN - 2013**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "Beynəlxalq ticarət və gömrük işi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
Arif Şəkərəli oğlu Şəkərəliyev

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
Gəncəli Əziz oğlu Gənciyev

iqtisad üzrə fəlsəfə doktoru, dosent
Gülnarə Sədi qızı Hacıyeva

**Aparıcı təşkilat:** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət idarəçiliyi və menecment" kafedrası

Müdafiə "_20__" _04_ 2013-cü il saat "___"-da Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin nəzdində yaradılmış D. 01.211 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, akt zalı.

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" _______ 2013-cü ildə göndərilmişdir.

**D. 01.211 Dissertasiya Şurasının elmi katibi:**
**tarix üzrə fəlsəfə doktoru, dosent E.A.Şıxəliyev**

## DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı.** Dünya iqtisadiyyatına inteqrasiyanın güclənməsi, qloballaşmanın təsiri altında geosiyasi proseslərin daha dərin xarakter alması ölkələrin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə də təsir etməkdədir. Təcrübə və elmi araşdırmalar göstərir ki, qloballaşma və milli iqtisadi təhlükəsizlik prosesi müəyyən məqamlarda bir-biri ilə ziddiyyət təşkil edir. Qloballaşma prosesi əksər hallarda qabaqlayıcı tədbirlər görülmədikdə inkişaf etməkdə olan ölkələrin iqtisadi təhlükəsizlik baxımından mənafelərinə cavab verməyə bilər.

Müstəqilik əldə etdikdən sonra Azərbaycanda iqtisadi təhlükəsizlik daha aktual problem kimi önə çıxmışdır. Belə ki, ölkəmizdə açıq iqtisadiyyatın qurulması, dünya iqtisadiyyatına inteqrasiya, yeni iqtisadi sistemin yaradılması prosesi kimi çətin, ağrılı proseslər iqtisadi sahədə bir çox problemlərin təsir dairəsini genişləndirir və iqtisadi təhlükəsizliyin təmin edilməsi zəruriliyini doğurur.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, təhlükəsiz yaşamaq üçün təkcə güclü orduya deyil, həm də inkişaf etmiş istehlak nemətləri və xidmət istehsalı sahələrinə, daxili sosial-siyasi sabitlik və islahatların etibarlı sosial bazasına, ümumi iqtisadi potensialla tarazlaşdırılan kifayət qədər güclü müdafiə potensialına malik iqtisadiyyatın olması vacibdir.

Göstərilən tələblər baxımından milli iqtisadiyyat qarşısında duran vəzifələrin reallaşmasının ən mühüm şərtlərindən biri ölkəmizin milli iqtisadi təhlükəsizlik sisteminin konseptual əsaslarını işləyib hazırlamaqdan ibarətdir. Hazırda Azərbaycanda iqtisadi təhlükəsizlik problemi ölkənin mövcud resurs potensialından səmərəli istifadə etməklə ümummilli mənafelərin reallaşdırılması, sağlam milli iqtisadiyyatın formalaşdırılması prinsipləri əsasında öz həllini tapmalıdır. Odur ki, bütün bunlar nəzərə alınmaqla, respublikamızın mövcud reallıqlarına cavab verən milli iqtisadi təhlükəsizlik sisteminin formalaşmasının elmi əsaslarının işlənib hazırlanması xüsusi əhəmiyyət kəsb edir.

Müstəqilliyimizin ilk illərində Azərbaycanın iqtisadi təhlükəsizlik siyasətinin mahiyyəti, istiqamətləri, mexanizmləri haqqında əsaslandırılmış yanaşma və təsəvvürlər olduqca səthi olmuşdur. Xalqın tələbi ilə hakimiyyətə gələn ümummilli liderimiz Heydər Əliyev ölkənin təhlükəsizlik problemlərinin həllini prioritet məsələ kimi önə çəkmiş, bu istiqamətdə mühüm addımlar atmışdır. Yalnız 1993-cü ildən başlayaraq ölkədə vahid prinsiplərə söykənən milli inkişaf və təhlükəsizlik siyasəti həyata keçirilməyə başlanmışdır. Azərbaycanın milli inkişaf və

təhlükəsizliyinin nəzəri və praktiki məsələləri geniş ictimai-siyasi və elmi müzakirəyə çıxarılmış, onun konseptual əsasları müəyyən edilmişdir[1].

Enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində məqsədyönlü və strateji fəaliyyətin əsası 1994-cü ildə "Əsrin müqaviləsi" ilə qoyulmuş, sonrakı illərdə "Energetika haqqında" Azərbaycan Respublikası Qanunu, "Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması" üzrə Dövlət Proqramı qəbul edilmiş, neft-qaz ixrac boru kəmərləri şəbəkəsinin yaradılması və şaxələndirilməsi üzrə uğurlu siyasət həyata keçirilmişdir.

Ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün 1995-ci ildən başlayaraq aqrar islahatların hüquqi əsasları yaradılmış və islahatlara start verilmişdir. Ölkə Prezidentinin 2 mart 2001-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ərzaq Təhlükəsizliyi Proqramı", 25 avqust 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" ölkəmizin ərzaq təhlükəsizliyinin yüksəldilməsində mühüm rol oynamışdır.

Bunlardan başqa, nəqliyyat təhlükəsizliyinin təmin edilməsi ilə bağlı qanunlar və proqramlar qəbul edilmiş, beynəlxalq nəqliyyat dəhlizlərində iştirakçılıqda ölkəmizin milli maraqları yüksək səviyyədə təmin edilmişdir. İnformasiya təhlükəsizliyi ilə bağlı bir sıra hüquqi-normativ sənədlər qəbul edilməklə informasiya cəmiyyətinə keçidin qanunvericilik bazası təkmilləşdirilmiş, "Azərbaycanın inkişafı naminə informasiya və kommunikasiya texnologiyalarının inkişafı üzrə Milli Strategiya (2003-2012-ci illər)" və bu sahənin inkişafı ilə bağlı bir neçə dövlət proqramı təsdiq edilmişdir.

İqtisadi təhlükəsizliyin təmin edilməsinin hüquqi əsasları 2004-cü ilin 29 iyununda qəbul edilmiş "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanununda öz əksini tapmışdır. Qanunda göstərilir ki, Azərbaycan Respublikasının iqtisadi sahədə əsas milli maraqları iqtisadi potensialın artırılmasından, bazar iqtisadiyyatının inkişafı və onun hüquqi əsaslarının təkmilləşdirilməsindən, iqtisadi sabitliyin təmin olunmasından, iqtisadiyyatın inkişafı üçün daxili və xarici investisiyalardan ötrü əlverişli şəraitin yaradılmasından, təbii və maddi sərvətlərin qorunması və səmərəli istifadə edilməsindən, regional və dünya bazarlarının formalaşmasında və fəaliyyət göstərməsində azad və bərabərhüquqlu inkişafın təmin edilməsindən ibarətdir[2].

---

[1] Həsənov Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı: Letterpress, 2011, s.10

[2] "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanunu. http://ict.az/az/index.php?option=com_content&task=view&id=532&Itemid=231

İqtisadiyyatımızın inkişafının müasir mərhələsində ölkənin iqtisadi təhlükəsizliyinin gücləndirilməsi tədbirləri yeni qlobal çağırışlar kontekstində davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin 23 may 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası" dövlətin müstəqilliyini, ərazi bütövlüyünü və demokratik inkişaf yolunu, strateji seçimi kimi Avratlantik məkana inteqrasiyasını, bununla yanaşı tarazlaşdırılmış xarici siyasətinin çoxşaxəliliyini vurğulayan, Azərbaycan Respublikasında şəxsiyyət, cəmiyyət və dövləti xarici və daxili təhdidlərdən qorumağa yönəlmiş siyasət və tədbirlərin məqsəd, prinsip və yanaşmalarının məcmusudur[3].

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasında qloballaşmanın müsbət amilləri ilə yanaşı mənfi yüklü iqtisadi proseslərin də yayılmasına diqqət çəkilmiş, bu proseslərin ümumdünya təsərrüfat inteqrasiyasına cəlb olunmuş ölkəmiz üçün yaratdığı təhdidlərdən qorunmaq, iqtisadi təhlükəsizliyin daha da gücləndirilməsi, yüksək rəqabət qabiliyyətli iqtisadiyyatın formalaşdırılması, ərzaq, enerji, nəqliyyat, informasiya təhlükəsizliyinin, demoqrafik və ekoloji təhlükəsizliyin yüksəldilməsi üçün gələcək fəaliyyətin konseptual istiqamətləri müəyyən edilmişdir[4].

Müasir dünyada qloballaşan iqtisadiyyatın sərt tələblərinə cavab verə bilən milli iqtisadiyyatın formalaşması xeyli dərəcədə ölkənin sosial-iqtisadi inkişaf göstəricilərinin optimal səviyyəsinin təmin edilməsindən asılıdır. Odur ki, Azərbaycanın milli iqtisadi təhlükəsizlik sisteminin formalaşmasında ölkənin sosial-iqtisadi inkişaf göstəricilərinin iqtisadi təhlükəsizliyin beynəlxalq təcrübədə sınaqdan çıxmış müvafiq astana kəmiyyətləri ilə müqayisə olunması mühüm əhəmiyyət kəsb edir. Bunun üçün isə ölkə iqtisadiyyatının sabit artım qabiliyyətini, bütün maliyyələşmə mənbələri hesabına əsas kapitala investisiyaların həcmini, habelə maliyyə-bank və xarici iqtisadi fəaliyyət sferalarını xarakterizə edən iqtisadi təhlükəsizlik indikatorları müvafiq astana kəmiyyətləri ilə müqayisə edilərək qiymətləndirilməlidir.

İqtisadi təhlükəsizliyi təmin etmək dövlətin qarşısında duran vacib məsələ olduğundan inkişafın bütün mərhələlərində iqtisadi təhlükəsizliyə

---

[3] Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası. "Azərbaycan" qəz., Bakı, 2007, 24 may.

[4] "Azərbaycan 2020: gələcəyə baxiş" inkişaf konsepsiyası. http://www.president.az/files/future_az.pdf

olan təhdidlərin araşdırılması və müdafiə yollarının müəyyənləşdirilməsi iqtisadçı alimlərin daim diqqət mərkəzində olmalıdır. Ona görə də hesab edirik ki, tədqiqat mövzusunun seçilməsi iqtisadi inkişafın müasir mərhələsində Azərbaycan üçün son dərəcədə vacib olan milli iqtisadi təhlükəsizlik sisteminin təkmilləşdirilməsi mexanizminin işlənib hazırlanması zərurətindən irəli gəlmişdir. İqtisadi təhlükəsizliyə olan təhdidlərin qarşısının alınması və iqtisadi təhlükəsizliyin təmin olunmasının müasir iqtisadi situasiyaya cavab verən forma və metodlarının, optimal təhlükəsizlik mexanizminin işlənib hazırlanması, habelə iqtisadi təhlükəsizliyin bütövlükdə bir sistem kimi elmi-tədqiqat və araşdırmalara cəlb edilməsi ölkəmizin dünya iqtisadiyyatına sürətlə inteqrasiya etdiyi müasir şəraitdə elmi və təcrübi cəhətdən mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan müasir şəraitdə milli iqtisadi təhlükəsizlik sisteminin formalaşması və təkmilləşdirilməsi problemlərinin tədqiqinə həsr edilmiş tədqiqat işi öz aktuallığı ilə seçilir.

**Problemin öyrənilmə səviyyəsi.** İqtisadi təhlükəsizlik problemlərinin tədqiqi həmişə iqtisadçı alimlərin diqqət mərkəzində olmuşdur. Azərbaycan alimləri Z.Ə.Səmədzadənin, A.K.Ələsgərovun, Ş.M.Muradovun, Ş.H.Hacıyevin, M.A.Əhmədovun, T.Ə.Quliyevin, A.Ş.Şəkərəliyevin, R.T.Həsənovun, R.Ə.Balayevin, Ə.İ.Bayramovun, N.M.Məmmədovun, M.İ.Bərxudarovun, Ə.X.Nuriyevin, G.Ə.Gənciyevin, Ü.Əliyevin və başqalarının əsərlərində milli iqtisadi təhlükəsizlik sisteminə dair bir çox nəzəri və praktiki məsələlərə baxılmışdır.

Qeyd edilən problemin ayrı-ayrı aspektləri isə dünya ölkələrinin bir sıra alimlərinin: V.L.Sençaqovun, L.İ.Abalkinin, A.İllarionovun, A.Nesterovun, A.Vakurinin, V.Medvedevin, A.İ.Arxinovun, A.N.Nesterenkonun, L.İ.Reytmanın, R.Mayersin və başqalarının tədqiqat obyekti olmuşdur.

Milli iqtisadi təhlükəsizlik sisteminin ayrı-ayrı tərəflərinin qeyd edilən yerli və xarici iqtisadçı alimlər tərəfindən araşdırılmasına baxmayaraq, hazırkı situasiyada ölkəmizin milli iqtisadi təhlükəsizlik sisteminin formalaşması problemləri ayrıca tədqiqat obyektinə çevrilməmiş, bütövlükdə sistem şəklində öyrənilməmişdir. Ona görə də yuxarıda qeyd edilən çoxsaylı dəyərli tədqiqatlarla yanaşı, müasir mərhələdə ölkə iqtisadiyyatında iqtisadi təhlükəsizliyin təmin olunmasının müasir vəziyyətinin sistemli araşdırılması, bu sahədə fəaliyyətin idarə olunması mexanizmlərinin təhlili, həmçinin onun təkmilləşdirilməsi istiqamətlərinə həsr olunan kompleks tədqiqat işinin yazılmasına ehtiyac yaranmışdır. Məhz bu zərurət tədqiqat mövzusunun seçilməsini şərtləndirmiş və onun məqsəd və vəzifələrini müəyyən etmişdir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqat işinin məqsədi müasir şəraitdə milli iqtisadi təhlükəsizlik sisteminin təşkilati-metodoloji aspektlərini, Azərbaycanda onun formalaşması və inkişafı xüsusiyyətlərini, habelə maliyyə-kredit və xarici iqtisadi fəaliyyət sferalarında mövcud olan milli iqtisadi maraqların təmin edilməsi problemlərini dərindən öyrənib ümumiləşdirmək əsasında ölkənin iqtisadi təhlükəsizlik sisteminin təkmilləşdirilməsinə dair elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələr işləyib hazırlamaqdan ibarətdir.

Tədqiqatın məqsədinə uyğun olaraq, aşağıdakı vəzifələr qarşıya qoyulmuş və həll edilmişdir:

- bazar münasibətləri şəraitində milli iqtisadi təhlükəsizlik sisteminin mahiyyəti və məzmununun təşkilati-metodoloji aspektlərdən öyrənilib aşkara çıxarılması;
- ölkənin iqtisadi təhlükəsizlik səviyyəsinin müəyyən edilməsi konsepsiyasının işlənib hazırlanması;
- Azərbaycanda milli iqtisadi təhlükəsizlik sisteminin meyar və göstəricilərinin, habelə yarana biləcək təhdidlərin dərindən təhlili əsasında müasir mərhələdə iqtisadi təhlükəsizliyin formalaşması xüsusiyyətlərinin müəyyənləşdirilməsi;
- maliyyə-bank sferasında mövcud olan təhlükəsizlik təhdidlərini müəyyən etməklə milli iqtisadiyyatın maliyyə-bank sistemi təhlükəsizliyinin formalaşması xüsusiyyətlərinin aşkara çıxarılması;
- xarici-iqtisadi fəaliyyət sferasında milli iqtisadi təhlükəsizlik səviyyəsinin müəyyən edilməsi və ona təsir edən amillərin təhlili və qiymətləndirilməsi;
- yeni iqtisadi sistemin tam bərqərar olduğu şəraitdə strateji məqsədlərə uyğun olaraq Azərbaycanda milli iqtisadi təhlükəsizlik sisteminin təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsi;
- Azərbaycan Respublikasının əsas monetar göstəriciləri üzrə proqnozların iqtisadi təhlükəsizliyin müvafiq astana kəmiyyətləri üzrə müqayisəsini aparmaqla yaxın gələcək üçün ölkənin maliyyə təhlükəsizliyinin təmin edilməsi perspektivlərinin qiymətləndirilməsi;
- xarici iqtisadi əlaqələrin prioritet istiqamətlərini əsaslandırmaqla beynəlxalq bazarlarda milli iqtisadi maraqların təmin edilməsi yollarının aşkara çıxarılması.

**Tədqiqatın obyekti və predmeti.** İşdə tədqiqat obyekti kimi Azərbaycan Respublikasının milli iqtisadi təhlükəsizlik sistemi seçilmişdir.

Tədqiqatın predmetini milli iqtisadi təhlükəsizlik sisteminin formalaşması və inkişafı ilə bağlı iqtisadi münasibətləri özündə əks etdirən

hadisə və proseslərin öyrənilməsi təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Tədqiqatın nəzəri-metodoloji əsaslarını iqtisadi təhlükəsizliklə bağlı mövcud iqtisadi nəzəriyyələr, görkəmli dünya və ölkə iqtisadçı alimləri tərəfindən işlənib hazırlanmış elmi konsepsiyalar və hipotezlər, Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərman və Sərəncamları, Milli Məclisin bu barədə qəbul etdiyi qanun və qərarlar, iqtisadi təhlükəsizliklə bağlı digər normativ-hüquqi sənədlər təşkil edir.

Dissertasiya işində iqtisadi təhlil, müqayisə, müşahidə, məntiqi ümumiləşdirmə, monoqrafik tədqiqat, analitik-statistik, iqtisadi-riyazi və sair xüsusi tədqiqat üsullarından istifadə edilmişdir. Tədqiqat prosesində, ölkədə iqtisadi islahatların aparılması və uğurla həyata keçirilməsinə dair mövcud sənədlər diqqətlə təhlil olunmuşdur.

**Tədqiqatın informasiya bazası.** Dissertasiya işində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 1995-2011-ci illərə aid statistik məlumatlarından, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, İqtisadi İnkişaf Nazirliyinin, Azərbaycan Respublikası Mərkəzi Bankının, Vergilər Nazirliyinin, Dövlət Gömrük Komitəsinin, materiallarından istifadə edilmiş, Dünya Bankının və digər beynəlxalq qurumların material, hesabat və sənədlərinə, həmçinin internet şəbəkəsində müvafiq iqtisadi inkişaf göstəriciləri üzrə informasiya bazasına geniş istinad edilmişdir.

**Tədqiqat işinin elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- bazar münasibətləri şəraitində milli iqtisadi təhlükəsizlik sisteminin mahiyyəti və məzmunu təşkilati-metodoloji aspektlərdən kompleks şəkildə ilk dəfə olaraq öyrənilmişdir;
- iqtisadi təhlükəsizliyin qlobal məkanda və ölkəmizdə mövcud şəraitə uyğun səviyyəsinin müəyyən edilməsinin elmi və konseptual əsasları işlənib hazırlanmışdır;
- müasir mərhələdə milli iqtisadi təhlükəsizlik sisteminin formalaşması xüsusiyyətləri aşkara çıxarılıb əsaslandırılmışdır;
- iqtisadi islahatların mərhələlərindən asılı olaraq ölkənin maliyyə-bank sisteminin təhlükəsizliyinin mövcud vəziyyəti təhlil edilərək qiymətləndirilmişdir;
- xarici iqtisadi fəaliyyət sferasında iqtisadi təhlükəsizlik səviyyəsinə təsir edən amillər mənşəyinə və miqyasına görə öyrənilib aşkara çıxarılmışdır;
- milli iqtisadi təhlükəsizlik sisteminin bazar münasibətlərinə və beynəlxalq təcrübəyə uyğun şəkildə təkmilləşdirilməsinə dair təkliflər və

tövsiyələr irəli sürülmüşdür;

- yaxın gələcək üçün Azərbaycanın maliyyə təhlükəsizliyinin təmin edilməsi istiqamətləri əsaslandırılmışdır;
- xarici bazarlarda milli iqtisadi maraqların təmin edilməsinə dair elmi cəhətdən əsaslandırılmış təkliflər işlənib hazırlanmışdır.

**Tədqiqat işinin nəzəri və təcrübi əhəmiyyəti.** İqtisadi təhlükəsizliyin yüksəldilməsinin səmərəli mexanizmlərinin tətbiqi istiqamətində müasir elmi-tədqiqat işi kimi müəllifin əldə etdiyi elmi nəticələr və buna müvafiq olaraq irəli sürdüyü təkliflər nəzəri baxımdan gələcəkdə iqtisadi təhlükəsizlik sisteminin təhlilinə dair elmi işlərin hazırlanmasında və tədris prosesində istifadə edilə bilər.

İşin təcrübi əhəmiyyəti ondan ibarətdir ki, onun əsas müddəalarından, əldə olunmuş nəticələrdən, habelə irəli sürülmüş təklif və tövsiyələrdən istifadə edilməsi milli iqtisadi təhlükəsizlik sisteminin müasir iqtisadi situasiyaya uyğun şəkildə qurulmasına, Azərbaycan Respublikasının dünya təsərrüfat sisteminə təhlükəsiz inteqrasiyasına, eləcə də maliyyə-bank və xarici iqtisadi fəaliyyət sferalarında milli iqtisadi maraqların təmin edilməsinə əhəmiyyətli təsir göstərə bilər.

**İşin aprobasiyası və nəticələrin tətbiqi.** Tədqiqat işinin əsas müddəaları 2002-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasında keçirilən "Azərbaycan iqtisadiyyatının strateji problemləri" adlı respublika elmi-praktiki konfransında və Azərbaycan Dövlət İqtisad Universitetində büdcə təyinatlı elmi-tədqiqat işlərinin yekununa həsr edilmiş elmi-praktiki konfransda məruzə edilmiş və bəyənilmişdir.

Mövzuya aid 9 məqalə və tezis (o cümlədən 2-si xaricdə olmaqla) dərc edilmişdir. Dissertasiyanın nəzəri-metodoloji materiallarından Azərbaycan Dövlət İqtisad Universitetində tədris prosesində istifadə edilir.

**Dissertasiya işinin həcmi və quruluşu.** Dissertasiya giriş, üç fəsil və nəticə hissəsindən ibarət olmaqla 156 səhifə həcmindədir. İşdə 13 şəkil və 13 cədvəl verilmiş, 130 adda ədəbiyyatdan istifadə olunmuşdur.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin girişində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın məqsəd və vəzifələri ifadə edilmiş, obyekti, predmeti və elmi yeniliyi müəyyənləşdirilmiş, praktiki əhəmiyyəti göstərilmişdir.

Dissertasiya işinin birinci fəsli **"Milli iqtisadi təhlükəsizlik sisteminin formalaşmasının təşkilati-metodoloji aspektləri"** adlanır. Bu fəsildə iqtisadi təhlükəsizlik sisteminin mahiyyəti və məzmunu şərh

edilmiş, milli iqtisadi təhlükəsizlik sisteminin formalaşmasının təşkilati-hüquqi əsasları aydınlaşdırılmış, ölkənin iqtisadi təhlükəsizlik səviyyəsinin müəyyən edilməsi konsepsiyası nəzərdən keçirilmişdir. Qeyd edilmişdir ki, milli təhlükəsizlik geniş anlayış olub, özündə maliyyə, sosial, ekoloji, energetika və s. təhlükəsizlikləri birləşdirir. Milli təhlükəsizliyin bu və ya digər tərəflərinə baxarkən onların iqtisadi aspektlərini nəzərə almamaq olmaz.

Bu fəsildə qeyd edilmişdir ki, iqtisadi təhlükəsizliyi cəmiyyətin və dövlətin müasir həyatına sistemli baxışı formalaşdıran anlayışlar sırasına daxil edirlər. Belə ki, prof. L.P.Qonçarenkonun fikrincə, milli iqtisadi təhlükəsizlik iqtisadiyyatın və hakimiyyət institutlarının elə bir vəziyyətidir ki, bu zaman milli maraqların zəmanətli müdafiəsi, bütövlükdə ölkənin harmonik, sosial istiqamətli inkişafı, kifayət qədər iqtisadi və müdafiə potensialı təmin edilir[5].

Ü.Əliyevin yanaşmasına görə, iqtisadi təhlükəsizliyinin mahiyyəti dövlət institut və hakimiyyət orqanları tərəfindən milli mənafelərin təminatlı müdafiəsi, hətta daxili və xarici əlverişsiz şəraitin mövcud olduğu dövrdə kifayət dərəcədə müdafiə potensialını təmin etməkdən ibarətdir[6].

A.İllarionova görə, iqtisadi təhlükəsizlik dedikdə iqtisadi, siyasi və hüquqi şəraitlərin elə bir uzlaşması başa düşülür ki, bu zaman uzunmüddətli perspektivdə daha səmərəli üsulla əhalinin hər nəfərinə iqtisadi resursların maksimum miqdarının dayanıqlı istehsalı təmin olunur[7].

Akademik Z.Ə.Səmədzadə bir qədər də irəli gedərək qeyd edir ki, iqtisadi təhlükəsizlik dedikdə, iqtisadiyyatın və onun qurumlarının elə vəziyyəti başa düşülür ki, bu, milli mənafeləri müdafiə etməyə, yeridilən siyasətin sosial yönümlülüyünə, iqtisadiyyatın, ölkənin müdafiə qabiliyyətinin tələb olunan səviyyədə olmasına imkan yaratsın[8].

Beləliklə, qeyd edilən fikirləri ümumiləşdirərək, iqtisadi təhlükəsizliyin mahiyyətini daxili və xarici proseslərin hətta əlverişsiz inkişafı şəraitində milli maraqların zəmanətli müdafiəsinin, kifayət qədər müdafiə potensialının təmin edildiyi iqtisadiyyatın və hakimiyyət institutlarının vəziyyəti kimi müəyyən etmək olar.

Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi səviyyəsi barədə daha ətraflı təsəvvür əldə etmək üçün problemin mahiyyətini dərk etməyə

---

5 Экономическая и национальная безопасность: Учебник / под. ред. проф. Л.П. Гончаренко. М.: Экономика, 2008, с. 31.

6 Əliyev Ü. Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin nəzəri və praktiki məsələləri // İqtisad elmləri: nəzəriyyə və praktika, 2002, №1-2, s. 18

7 Илларионов А. Критерии экономической безопасности // Вопросы экономики, 1998, №10, с. 35-38

8 Səmədzadə Z.Ə. Dünya iqtisadiyyatı: Çin iqtisadi möcüzəsi. Bakı: Gənclik, 2001, s. 208

imkan verən göstəriciləri təhlil etmək vacibdir. Bunu nəzərə alaraq iqtisadi təhlükəsizlik göstəricilərinin aşağıdakı kimi qruplaşdırılmasını məqsədəuyğun hesab etmişik (şəkil 1.):




Şəkil 1. İqtisadi təhlükəsizlik göstəricilərinin strukturu

- iqtisadi artım göstəriciləri (milli istehsalın və gəlirin dinamika və quruluşu, sənaye istehsalının həcm və tempi göstəriciləri, təsərrüfatın sahəli quruluşu və digər sahələrin, kapital qoyuluşunun və s. dinamikası);
- ölkənin təbii-resurs, istehsal, elmi-texniki potensialını xarakterizə edən göstəricilər;
- təsərrüfat mexanizminin dinamikliyini və uyğunlaşmasını, eləcə də onun xarici amillərdən asılılığını xarakterizə edən göstəricilər (inflyasiya səviyyəsi, milli valyutanın sabitliyi, daxili və xarici borclar);
- həyat səviyyəsi göstəriciləri (adambaşına düşən ÜDM, gəlirlərin diferensiallaşma səviyyəsi, əhalinin əsas qruplarının maddi nemət və xidmətlərlə təminatı, əhalinin əmək qabiliyyətliliyi, ətraf mühitin vəziyyəti və s.).

Azərbaycanda növbəti mərhələ üçün iqtisadiyyatın inkişafına

istiqamətlənmiş iqtisadi islahatlar proqramı da iqtisadi situasiyaya uyğun olaraq, iqtisadi təhlükəsizliyin yuxarıda göstərilən bütün göstəricilərini özündə əks etdirməlidir.

Bu fəsildə qeyd edilmişdir ki, iqtisadi təhlükəsizliyin yüksək səviyyədə təmin edilməsi üçün onun qanunvericilik bazası formalaşdırılmalı və müntəzəm olaraq təkmilləşdirilməlidir. İqtisadi təhlükəsizliyin hüquqi bazası 2 hissədən – xarici mühitdə təhlükəsizliyi tənzimləyən qanunvericilik aktlarından və iqtisadi təhlükəsizliyin daxili rejimini tənzimləyən normativ-hüquqi sənədlərdən ibarətdir. Ölkəmizdə hər iki istiqamətdə iqtisadi təhlükəsizliyin hüquqi təminatına aid olan bazaya Azərbaycan Respublikasının Konstitusiyası; məcəllələr (mülki, cinayət, əmək, vergi, gömrük, torpaq, hava, dəniz məcəllələri və s.); "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunu; Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası; "Valyuta tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Qanunu; "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu; "Sənaye təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanunu və s. daxildir. Bunlarla yanaşı, iqtisadi təhlükəsizliyin təmin edilməsi ilə bağlı normativ-hüquqi bazaya həmçinin ölkənin qoşulduğu beynəlxalq konvensiyalar və sazişləri də aid etmək olar.

Bu fəsildə vurğulanmışdır ki, iqtisadi təhlükəsizlik sisteminin vacib tərkib hissələrindən biri onun təşkilati-struktur elementlərini təşkil edən institutlar və təsisatlardır. Ölkənin iqtisadi təhlükəsizliyin təmin edilməsində dövlət institutları mühüm rola malikdir. Bunu nəzərə alaraq ölkənin milli iqtisadi təhlükəsizlik sisteminin fəaliyyətinin prinsip, metod və hüquqi bazasının təhlili əsasında bu sistemin formalaşmasını həyata keçirən institutlara və dövlət orqanlarına milli iqtisadi təhlükəsizlik sisteminin formalaşdırılması ilə əlaqədar tədbirlər planlaşdırmaq və həyata keçirmək; milli iqtisadi sistemin təkmilləşdirilməsi ilə bağlı tədbirlər görmək; milli iqtisadi təhlükəsizlik sistemi sahəsində qanunlara və digər normativ hüquqi aktlara riayət olunmasını təmin etmək; ölkənin milli iqtisadi təhlükəsizlik sistemini təhdid edən, milli maraqlara zərər vura bilən fəaliyyətin qarşısının alınması üçün müvafiq tədbirlər həyata keçirmək səlahiyyətlərinin verilməsi məqsədəuyğundur.

Fikrimizcə, ölkənin iqtisadi sahədə milli maraqlarının daha geniş şəkildə müəyyən olunmasına böyük ehtiyac vardır. Odur ki, tədqiqat işində apardığımız təhlillər nəticəsində həmin maraqların aşağıdakı kimi təsnifatını məqsədəuyğun hesab edirik: iqtisadiyyatın geniş təkrar istehsal

rejimində fəaliyyət göstərmək qabiliyyəti; xalqın rifahının və həyatının keyfiyyətinin yüksəldilməsi; iqtisadi potensialın artırılması; bazar iqtisadiyyatının inkişafı, onun hüquqi əsaslarının təkmilləşdirilməsi; iqtisadi sabitliyin təmin edilməsi; maliyyə-bank sisteminin vahidliyi və dayanıqlığı; iqtisadiyyatın inkişafı üçün daxili və xarici investisiyalardan ötrü əlverişli şəraitin yaradılması; təbii və maddi sərvətlərin qorunması və səmərəli istifadə edilməsi; xarici ticarətin səmərəli strukturu; elmi-texniki tərəqqinin strateji cəhətdən vacib istiqamətlərində Azərbaycanın müstəqilliyi; vahid iqtisadi məkanın qorunub saxlanması; cəmiyyətin kriminallaşmasını istisna edən hüquqi şəraitin yaradılması; regional və dünya bazarlarının formalaşmasında və fəaliyyət göstərməsində azad və bərabərhüquqlu iştirakın təmin edilməsi.

Bu fəsildə həmçinin ölkənin iqtisadi sahədə əsas təhdidləri daha geniş şəkildə aşağıdakı kimi dəqiqləşdirilmişdir: dövlətin iqtisadi potensialının tükənməsi və yaxud qeyri-səmərəli istifadəsi; milli iqtisadiyyatın digər ölkələrdən maliyyə və texnoloji asılılığının yaranması; boru kəmərlərinin, digər kommunikasiyaların və nəqliyyat dəhlizlərinin fəaliyyətinin pozulması; iqtisadi əlaqələri nizamlayan dövlət sisteminin pərakəndəliyi, iqtisadiyyatın qeyri-mütənasib inkişafı; Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatından təcrid olunması; ölkənin investisiya imkanlarını ixtisar edən külli miqdarda xarici borc; maliyyə-kredit sisteminin pozulması, maddi və maliyyə vəsaitlərinin ölkədən qanunsuz çıxarılması; kapitalın azalması; aşağı innovasiya və investisiya aktivliyi; məhsulun aşağı rəqabət qabiliyyətliyi; təbii və maddi sərvətlərin talan edilməsi və səmərəsiz istifadəsi; manatın zəifliyi və müdafiə olunmazlığı.

Ölkənin iqtisadi təhlükəsizlik təhdidlərinin monitorinqi prosesində sosial-iqtisadi inkişafın demək olar ki, bütün tərəflərini xarakterizə edən analitik indikatorların geniş dairəsindən istifadə olunmalıdır. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, iqtisadi təhlükəsizliyin təhlili məqsədi üçün yuxarıda göstərilən bütün məcmu göstəricilərdən təxminən 150-yə qədərini indikator kimi istifadə etmək olar. Dissertasiyada bu iqtisadi təhlükəsizlik indikatorlarının tərkibi aşağıdakı kimi qruplaşdırılmışdır: ölkə iqtisadiyyatının sabit artım qabiliyyəti; bütün maliyyələşmə mənbələri hesabına əsas kapitala investisiyanın həcmi; ölkənin elmi potensialının qorunub saxlanması; strateji resursların təkrar istehsalı; maliyyə sisteminin dayanıqlığı; sosial sfera; xarici ticarətin strukturunun səmərələşdirilməsi.

İqtisadi təhlükəsizlik təhdidlərinin monitorinqi iqtisadiyyat sahəsində milli maraqların müdafiəsi üzrə dövlətin fəaliyyəti zamanı son dərəcə "aralı nöqtələri" aşkara çıxarmaq zəruridir. Həmin nöqtələrdən kənara çıxdıqda

iqtisadiyyatı, cəmiyyəti dağıdıcı proseslər və dönməz sarsıntılar gözləyir. Bununla əlaqədar olaraq, iqtisadi təhlükəsizliyin təhdidlərinin səviyyəsini xarakterizə edən indikator çoxluğundan həmin son dərəcədə "aralı nöqtələri" əks etdirən indikatorları ayırmaq lazımdır. Məhz bu indikatorlar iqtisadi təhlükəsizliyin astana kəmiyyətləri kimi istifadə olunurlar.

İqtisadi təhlükəsizliyin astana kəmiyyətlərinin miqdar parametrlərinin müəyyən edilməsinə metodoloji yanaşma əslində hesablama üçün əsas kimi qəbul edilən indikatorun seçilməsindən ibarətdir. Fikrimizcə, iqtisadi təhlükəsizliyin astana kəmiyyətlərinin aşağıdakı dörd qrupunun tərtib edilməsi məqsədəuyğundur:

1) milli maraqların başlıca prinsipial xüsusiyyətlərini əks etdirən və dövlət səviyyəsində təsdiq edilən makroiqtisadi göstəricilər;

2) həmin başlıca xüsusiyyətləri açıqlayan və İqtisadi İnkişaf Nazirliyi tərəfindən təsdiq edilən astana kəmiyyətləri;

3) müvafiq nazirliklər tərəfindən təsdiq edilən funksiyalar və sahə səviyyəli astana kəmiyyətləri;

4) regionların iqtisadi təhlükəsizliyinin astana kəmiyyətləri.

Astana kəmiyyətləri dövlət səviyyəsində bəyənilmiş və ya təsdiq edilmiş miqdar parametrləri statusu əldə etməlidirlər. Həmin parametrlərə əməl olunması hökumətin iqtisadi proqramlarının mütləq elementinə çevrilməlidir. Lakin təəssüf ki, indiyədək astana kəmiyyətlərinin təsdiq olunmuş miqdar parametrləri yoxdur. Ona görə də hesab edirik ki, bu və ya digər məsələlərlə bağlı ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi mexanizmi təkmilləşdirilməlidir.

Dissertasiya işinin **"Müasir şəraitdə milli iqtisadi təhlükəsizlik sisteminin formalaşması xüsusiyyətləri"** adlanan ikinci fəslində bu xüsusiyyətləri aşkara çıxarmaq və qiymətləndirmək üçün ilk növbədə ölkəmizdə dövlət müstəqilliyi bərpa edildiyi vaxtdan indiyə qədər olan dövrdə iqtisadi təhlükəsizliyin təmin olunması səviyyəsi araşdırılmış, onun səviyyəsinə təsir edən amillər müəyyən edilmiş, konkret şəraitdə ölkənin sosial-iqtisadi inkişaf göstəricilərinin beynəlxalq səviyyədə qəbul edilmiş müvafiq astana kəmiyyətləri ilə müqayisəsi aparılmışdır.

Azərbaycanda aparılan məqsədyönlü və balanslaşdırılmış makroiqtisadi siyasət nəticəsində ÜDM-in həcmi 2011-ci ildə 1995-ci ilə nisbətən 24,0 dəfə, 2000-ci ilə nisbətən 10,8 dəfə, 2005-ci ilə nisbətən isə 4,1 dəfə, 2010-cu ilə nisbətən real ifadədə 0,1% artmışdır. Onu da qeyd edək ki, 2011-ci ildə istehsal olunmuş ÜDM-in həcmi 51,2 mlrd. manat təşkil etmişdir ki, bu da əvvəlki ilə nisbətən müqayisəli qiymətlərlə 8,7 mlrd. manat çoxdur. Adambaşına düşən ÜDM-in həcmi isə 2011-ci ildə 7155,7

ABŞ dolları təşkil etməklə 2000-ci illə müqayisədə 10,8 dəfə, 2005-ci ilə görə isə 4,5 dəfə, 2010-cu ilə nisbətən 20,8% yüksək olmuşdur.

Aparılan hesablamalara əsasən, 1995-2011-ci illərdə ölkə iqtisadiyyatının sabit artım qabiliyyəti üzrə faktiki indikatorların iqtisadi təhlükəsizliyin müvafiq astana kəmiyyətləri ilə müqayisəsi göstərir ki, Azərbaycan üzrə ÜDM-in həcmi orta dünya səviyyəsinin 2005-ci ildə 40,2%-nə, əhalinin hər nəfərinə görə astana kəmiyyətinin isə 47,9%-nə bərabər idisə, 2011-ci ildə respublika üzrə bu göstəricilər beynəlxalq səviyyədə qəbul edilmiş müvafiq astana kəmiyyətlərini 87,1% və 2,0 dəfə ötmüşdür.

Respublikada iqtisadi artım tempinin yüksək olması məşğulluq səviyyəsinin də artmasına səbəb olmuşdur. Belə ki, Beynəlxalq Əmək Təşkilatının metodologiyası əsasında aparılan hesablamalara görə, bütün işsizlərin sayı 2005-ci illə müqayisədə 2011-ci ildə 21,0% azalaraq 317,8 mindən 250,9 min nəfərə enmişdir. Nəticədə iqtisadi fəal əhalinin tərkibində işsizlərin xüsusi çəkisi 2005-ci ildəki 7,6%-dən 2011-ci ildə 5,4%-ə enmişdir. İqtisadi fəal əhali arasında məşğul əhalinin sayı 2011-ci ildə 4375,2 min nəfər olmuşdur ki, bu da 2005-ci ilə nisbətən 312,9 min nəfər və yaxud 7,7% çoxdur. Bu isə o deməkdir ki, iqtisadi fəal əhalinin ümumi sayında məşğul əhalinin xüsusi çəkisi 94,6%-ə bərabərdir.

Təqdirəlayiq haldır ki, son illərdə regionlarda yeni iş yerlərinin açılması dövlətin iqtisadi siyasətinin prioritet istiqaməti kimi qəbul edilmişdir. "Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafının Dövlət Proqramı (2004-2008-ci illər)" və "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illər üzrə sosial-iqtisadi inkişafının Dövlət Proqramı" uğurla icra olunmuş, üçüncü dövlət proqramının hazırlanması ilə bağlı işlər həyata keçirilməkdədir. Bunlarla yanaşı ölkə Prezidentinin sərəncamı ilə "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Proqramı", "2007-2010-cu illərdə Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı", "2010-2015-ci illər üzrə Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" qəbul edilmiş və icra edilməkdədir. Beləliklə, həyata keçirilmiş tədbirlərin nəticəsində ölkədə işsizliyin səviyyəsi fasiləsiz olaraq azalmış və 2011-ci ildə minimum səviyyəyə çatmışdır.

Bu fəsildə həmçinin vurğulanmışdır ki, dünya iqtisadiyyatında baş verən qlobal iqtisadi böhrana baxmayaraq, sənayenin 2003-cü ildən müşahidə olunan artım tempi 2011-ci ildə də qorunub saxlanılmışdır. Sənaye məhsulunun həcminin 2011-ci ildə 1995-ci illə müqayisədə 19,8 dəfə, 2000-ci ilə nisbətən 9,6 dəfə, 2005-ci ilə nisbətən 3,8 dəfə artmış,

2011-ci ildə ÜDM-də xüsusi çəkisi 54,6% təşkil etmişdir. Hazırda ümumi sənaye məhsulunun 60 faizdən çoxu yanacaq-energetika kompleksində istehsal olunur. Nəticədə emal sənayesi ümumi sənaye məhsulunun həcmində yalnız 14,3%-lə[9] təmsil olunur ki, bu da iqtisadi təhlükəsizliyin müvafiq astana kəmiyyətinin səviyyəsindən (70%) xeyli aşağıdır. Eyni zamanda maşınqayırma və metal emalı sənayesinin ümumi sənaye məhsulunda xüsusi çəkisi 2010-cu ildə 2000-ci illə və 2005-ci illə müqayisədə müvafiq olaraq 1,0% və 2,2% bəndi səviyyəsində azalmış, 2011-ci ildə isə 2010-cu ilə nisbətən bu azalma 0,5% təşkil etmişdir. Qeyd etmək lazımdır ki, bu göstəriciyə görə respublikamız iqtisadi təhlükəsizliyin müvafiq astana kəmiyyətindən 10 dəfəyə qədər geri qalır.

Azərbaycan Respublikası DSK-nın məlumatlarına görə, kənd təsərrüfatı məhsullarının həcminin 2011-ci ildə 1995-ci ilə nisbətən 6,5 dəfə, 2000-ci ilə nisbətən 4,1 dəfə, 2005-ci ilə nisbətən isə 2,5 dəfə artmasına baxmayaraq, bu məhsulların ÜDM-də xüsusi çəkisi getdikcə azalmaqda davam edir. Belə ki, əgər bu göstərici 1995-ci ildə 33,4%, 2000-ci ildə 22,5% təşkil edirdisə, 2005-ci ildə azalaraq 13,8%-ə, 2010-cu ildə 5,4%-ə, 2011-ci ildə isə 5,3%-ə düşmüşdür.

Əsas kapitala investisiyaların ÜDM-də payı 1995-ci ildə 10,7%, 2000-ci ildə 20,5%, 2005-ci ildə 46,1%, 2010-cu ildə 23,4%, 2011-ci ildə isə 25,0% təşkil etmişdir. Bu göstəriciyə görə respublikamız iqtisadi təhlükəsizliyin müvafiq astana kəmiyyətinə (25%) uyğun gəlir.

Təhlil göstərir ki, son illər ölkədə həyata keçirilən iqtisadi islahatlar maliyyə-bank sistemində sabitliyin təmin olunmasına, eləcə də dövlətin maliyyə sisteminin əsas elementlərindən biri olan dövlət büdcəsinin gəlir və xərclərinin artımına öz əhəmiyyətli təsirini göstərmişdir. Belə ki, 2011-ci ildə büdcənin gəlirləri 1995-ci illə müqayisədə 49,5 dəfə, 2000-ci ilə nisbətən 22,0 dəfə, 2005-ci ilə nisbətən 7,6 dəfə artmışdır. Nəticədə dövlət büdcəsi gəlirlərinin ÜDM-də xüsusi çəkisi 1995-ci ildəki 14,9%-dən 2011-ci ildə 30,7%-ə qalxmışdır. 2011-ci ildə büdcə xərcləri 1995-ci ilə nisbətən 35,9 dəfə, 2000-ci ilə nisbətən 20,2 dəfə, 2005-ci ilə nisbətən 7,2 dəfə artaraq ÜDM-in 30,1%-ni təşkil etmişdir. Ölkədə iqtisadi təhlükəsizlik sisteminin formalaşması nöqteyi-nəzərindən büdcə xərclərinin 44,2%-ə qədərinin (6803,2 milyon manat) ölkə iqtisadiyyatının inkişaf etdirilməsinə yönəldilməsi təqdirəlayiq hal kimi qəbul edilməlidir. Təkcə onu qeyd etmək kifayətdir ki, 2005-ci illə müqayisədə bu göstərici 15,3 dəfə

---

[9] Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycan rəqəmlərdə. Bakı: Səda, 2011, s. 451

artmışdır. 2005-ci ildə dövlət büdcəsinin kəsiri 85,5 milyon manat olmaqla ÜDM-in 0,7%-ni, 2010-cu ildə 363,5 mln. manat olmaqla ÜDM-in 0,9%-ni təşkil etmişdir. İqtisadi təhlükəsizliyin müvafiq astana kəmiyyətlərinin 5% olduğunu nəzərə alsaq, müvafiq göstəricinin qənaətbəxş səviyyədə olduğu fikrinə gələ bilərik. 2011-ci ildə isə dövlət büdcəsində 303,2 mln. manat profisit yaranmışdır ki, bu da ÜDM-in 0,6%-ni təşkil etmişdir.

1995-2011-ci illərdə Azərbaycanın maliyyə-bank sistemi üzrə təhlükəsizlik indikatorunun təhlili göstərir ki, ölkədə verilmiş kreditlərin kəmiyyətinin ÜDM-ə nisbəti getdikcə artmaqdadır. Belə ki, 2010-cu ildə bu kəmiyyət 2002-ci illə müqayisədə 10,1 faiz bəndi, 2000-ci ilə nisbətən 11,7 faiz bəndi yüksəlmişdir.

Lakin bununla yanaşı, təhlil olunan dövrdə iqtisadiyyatın pulla təminatı səviyyəsi (M2-nin ÜDM-ə nisbəti) 10-20% cuvarında tərəddüd etmişdir ki, bu da iqtisadi təhlükəsizliyin qəbul edilmiş astana kəmiyyətindən (50%) son dərəcə aşağıdır. İqtisadiyyatın dollarlaşması səviyyəsini xarakterizə edən xarici valyutada depozitlərin xüsusi çəkisi 2003-cü ildəki 81,3 faizdən 2011-ci ildə 54,7 faizə düşmüşdür.

Ehtiyac meyarının kəmiyyətinin yaşayış minimumuna nisbəti 2005-ci ildəki 57,7%-dən 2010-cu ildə 74,7%-ə qalxmışdır. Ölkə əhalisinin orta ömür müddəti (73,6 il) iqtisadi təhlükəsizliyin müvafiq astana kəmiyyətindən (70 il) bir qədər çoxdur. İqtisadi cəhətdən aktiv əhalinin xüsusi çəkisi isə 48-50% cuvarındadır. Respublikada iqtisadi təhlükəsizlik səviyyəsinin hansı vəziyyətdə olması haqqında daha dolğun məlumat almaq üçün son dörd il (2008-2011) ərzində Azərbaycanın iqtisadi təhlükəsizliyinə təsir göstərən əsas göstəricilərin orta səviyyəsinin beynəlxalq səviyyədə qəbul edilmiş müvafiq astana kəmiyyətləri ilə müqayisəsini aparmaq vacibdir (cədvəl 1).

Cədvəlin məlumatlarından göründüyü kimi, adambaşına ÜDM-in həcmi üzrə Azərbaycanda son üç ilin orta göstəricisinə görə vəziyyət beynəlxalq səviyyədə qəbul edilmiş müvafiq astana kəmiyyətini 1,32 dəfə üstələyir. Xarici borcun həcminin ÜDM-də payı, büdcə kəsirinin ÜDM-də payı, işsizliyin səviyyəsi və əhalinin ömür müddəti göstəricilərini də iqtisadi təhlükəsizlik baxımından müsbət qiymətləndirmək olar. Bununla yanaşı, əsas kapitala investisiyaların həcminin ÜDM-də xüsusi çəkisi, idxalın ÜDM-də payı, yaşayış minimumundan aşağı gəlirlərə malik olanların sayının əhalinin ümumi sayında payı göstəricilərinə görə də müvafiq astana kəmiyyətlərinə yaxınlıq özünü göstərməkdədir. Lakin digər göstəricilər, məsələn sənaye istehsalında emal sənayesinin payı, elmi-tədqiqat xərclərinin, təhsilə ayrılan xərclərin ÜDM-də payı, monetizasiya

səviyyəsi, idxalın ÜDM-də və daxili istehlakda payı, daxili istehlakın ÜDM-də payı göstəriciləri haqqında bunu demək olmaz. Çünki, bu göstəricilər üzrə son üç ilin orta səviyyəsi iqtisadi təhlükəsizliyin müvafiq astana kəmiyyətlərindən xeyli geri qalır.

Cədvəl 1.

2008-2011-ci illərdə Azərbaycanın iqtisadi təhlükəsizliyinə təsir göstərən əsas göstəricilərin beynəlxalq səviyyəli müvafiq astana kəmiyyətləri ilə müqayisəsi

| Göstəricilər | Astana kəmiyyəti | Faktiki vəziyyət | Faktiki və astana kəmiyyətlərinin nisbəti |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 1. Adambaşına ÜDM həcmi, manatla | 3600 | 4430,1 | 1,23 |
| 2. Sənayedə istehsalında emal sənayesinin payı, %-lə | 70 | 19,8 | 0,28 |
| 3. Sənaye maşınqayırmanın payı, %-lə | 25 | 3,2 | 0,13 |
| 4. Əsas kapitala investisiyaların həcmi, ÜDM-ə nisbətən, %-lə | 25 | 23,4 | 0,94 |
| 5. Dövlət büdcəsinin gəlirləri, ÜDM-ə nisbətən, %-lə | 17,5 | 27,7 | 1,58 |
| 6. Dövlət büdcəsinin xərcləri, ÜDM-ə nisbətən, %-lə | 25 | 28,2 | 1,13 |
| 7. Büdcə kəsiri, ÜDM-ə nisbətən %-lə | 5 | 0,48 | 0,10 |
| 8. Elmi-tədqiqat xərcləri, ÜDM-ə nisbətən, %-lə | 2 | 0,21 | 0,11 |
| 9. Təhsilə ayrılan xərclər, ÜDM-ə nisbətən, %-lə | 10 | 2,8 | 0,28 |
| 10. Yaşayış minimumundan aşağı gəlirlərə malik insanların əhalinin ümumi sayında payı, %-lə | 7 | 11,1 | 1,59 |
| 11. Əhalinin ömür müddəti, il | 70 | 71 | 1,01 |
| 12. İşsizliyin səviyyəsi, %-lə (Beynəlxalq Əmək Təşkilatının metodologiyası üzrə) | 7 | 5,8 | 0,83 |
| 13. Xarici borcun həcmi, ÜDM-ə nisbətən, %-lə | 25 | 8,8 | 0,35 |
| 14. Milli valyutada pul kütləsinə nisbətdə xarici valyutanın həcmi, %-lə | 10 | 25,3 | 2,53 |
| 15. Monetizasiya səviyyəsi (M2-nin ÜDM-də payı), %-lə | 50 | 17,9 | 0,36 |
| 16. İdxalın ÜDM-də payı, %-lə | 15 | 17,0 | 1,13 |
| 17. İdxalın daxili istehlakda ÜDM-də payı, %-lə | 30 | 43 | 1,43 |
| 18. Daxili istehlakın ÜDM-də payı, %-lə | 65 | 39,5 | 0,61 |

Qeyd: Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin və Mərkəzi Bankın müvafiq illər üzrə materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Aparılan hesablamalar göstərir ki, büdcə gəlirlərinin ÜDM-də xüsusi çəkisi, başqa sözlə, büdcə yükü 2000-ci illə müqayisədə 2009-cu ildə 13,9 faiz bəndi artaraq 15,1%-dən 29%-ə yüksəlmiş, 2010-cu ildə isə bir qədər

(1,6 faiz bəndi) azalaraq 27,4%-ə bərabər olmuşdur. 2011-ci ildə bu göstərici 30,7%-ə yüksəlmişdir. Bu isə beynəlxalq səviyyədə qəbul edilmiş iqtisadi təhlükəsizliyin müvafiq astana kəmiyyətindən (25%) 5,7 faiz bəndi çoxdur. Bununla yanaşı, büdcəyə vergi daxilolmalarının ÜDM-də payı 2000-ci ildəki 12,0%-dən 2005-ci ildə 14,1%-ə, 2008-ci ildə isə 16,8%-ə yüksəlmiş, 2009-cu ildə 2,4 faiz bəndi, 2010-cu ildə daha 1,7 faiz bəndi, 2011-ci ildə 1,9% bəndi azalaraq müvafiq olaraq 14,4%, 12,7% və 12,5% təşkil etmişdir. Bu isə o deməkdir ki, beynəlxalq səviyyədə qəbul edilmiş iqtisadi təhlükəsizliyin müvafiq astana kəmiyyətinə (20%) çatmağa hələ 7,5 faiz bəndi var. Ona görə də hesab edirik ki, ölkədə mövcud vergi potensialını aşkara çıxarmaq və onu reallaşdırmaq üçün vergi intizamının möhkəmləndirilməsi ilə bağlı müvafiq tədbirlər görülməlidir.

İnstitusional olaraq formalaşmasına baxmayaraq, maliyyə sektorunun kapitalizasiya səviyyəsi və maliyyə dərinliyi sürətli iqtisadi artımı təmin etmək üçün yetərli deyildir. Bu gün hətta maliyyə sektorunun ən qabaqcıl seqmenti olan bank sisteminin də dərinliyi səviyyəsi aşağı hesab edilir. Maliyyə sisteminin dayazlığı onun dinamik iqtisadi artımı və iqtisadiyyatın diversifikasiyasını maliyyələşdirmək imkanlarını məhdudlaşdırır. Bu isə bizi qane edə bilməz. Hesablamalar göstərir ki, yoxsulluq səviyyəsinin əhəmiyyətli azaldılmasını təmin etmək üçün bank sisteminin maliyyə dərinliyi minimum 50%-dək artmalıdır.

Azərbaycanın xarici iqtisadi fəaliyyətində iqtisadi təhlükəsizliyə ölkənin xarici tədiyyə balansının vəziyyəti və əsas dünya valyutalarına nisbətən Azərbaycan manatının məzənnəsinin sabitliyi ilə əlaqədar amillər daxildir. Burada təhlükəsizlik, xarici iqtisadi əlaqələrin əmtəə strukturunu və coğrafiyasını, ticarət və tədiyyə balanslarının vəziyyətini, ölkənin valyuta şəraitini və daxili bazarda xarici rəqabət miqyasını, satış və tədarük bazarlarının diversifikasiya dərəcəsini və s. əks etdirən kifayət qədər geniş göstəricilər dəsti ilə xarakterizə oluna bilər.

Xarici ticarət fəaliyyəti sahəsində dövlətin iqtisadi təhlükəsizliyini təmin edən amillərdən biri də xarici investisiyalardan səmərəli istifadə olunması və ölkənin ondan asılılığın neytrallaşdırılması, əksər hallarda isə onun qarşısının alınmasıdır. 2011-ci ildə xarici investisiyaların həcmi 2010-cu ilə nisbətən 3,5% artmış, nəticədə xarici investisiyaların ÜDM-də xüsusi çəkisi 4,2 faiz bəndi azalaraq 13,4% təşkil etmişdir.

Dissertasiya işinin **"Bazar şəraitində milli iqtisadi təhlükəsizlik sisteminin təkmilləşdirilməsi istiqamətləri"** adlı üçüncü fəslində milli iqtisadi təhlükəsizlik sisteminin formalaşmasının strateji problemlərinin həllinə yanaşmalar, ölkənin maliyyə təhlükəsizliyinin təmin edilməsi

perspektivləri, habelə xarici bazarlarda milli iqtisadi maraqların təmin edilməsinin təkmilləşdirilməsi yolları öz əksini tapmışdır.

Bu fəsildə belə bir nəticə ortalığa çıxır ki, iqtisadi sahədə bazar mexanizminə daxil olan bütün idarəçilik subyektlərinin səmərəli və qarşılıqlı fəaliyyət göstərməsi üçün lazımi şəraitin yaradılması, əlverişli makro və mikromühitin formalaşması iqtisadi təhlükəsizliyin təmin edilməsində mühüm rol oynaya bilər. Ona görə də ölkənin maliyyə, bank, kredit, sığorta, vergi, gömrük və digər sistemlərində iqtisadi münasibətlər bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq çevik şəkildə tənzimlənməli, bu prosesdə beynəlxalq təcrübədən geniş istifadə edilməli, dünya iqtisadiyyatına inteqrasiya meylləri daha da gücləndirilməlidir.

Mütəxəssislərin fikrincə, 7-9%-lik illik inflyasiya səviyyəsi 2013-2015-ci illərdə qarşıda duran orta müddətli hədəfdir ki, bu da uzunmüddətli makroiqtisadi sabitliyin və iqtisadi təhlükəsizlik sisteminin formalaşmasının mühüm meyarıdır.

Dövlətin pul-kredit siyasətinin əsas monetar istiqamətlərindən biri də iqtisadiyyatın monetizasiyasının daha da artırılmasından ibarətdir. Bunun üçün makroiqtisadi sferada, o cümlədən valyuta bazarında baş verəcək proseslərin çoxvariantlı inkişaf ssenariləri tərtib edilməli, pul kütləsinə təsir edə biləcək bütün potensial monetar və qeyri-monetar amillər qruplaşdırılmalı və bu əsasda pul təklifinin müvafiq dövr üçün proqnozları verilməlidir. Məhz bu baxımdan aparılan hesablamalar göstərir ki, optimal halda 2013-2015-ci illərdə pul kütləsinin 35-37%-ə qədər artması potensialı mövcuddur. Lakin hazırda, iqtisadiyyatın monetizasiya səviyyəsi 20-22%-i ötmür ki, bu da iqtisadi təhlükəsizliyin müvafiq astana kəmiyyətindən (50%) 28-30 faiz bəndi aşağıdır.

2013-2015-ci illərdə ölkənin valyuta gəlirlərinin kəskin artacağı haqqında verilən proqnozlar bu dövrdə pul kütləsinin xeyli genişlənməsinə əsas yaradır. Onu da qeyd edək ki, 2013-2015-ci illərdə pul təklifinin əvvəlki illərə nisbətən daha yüksək artım tempi ilə proqnozlaşdırılması, 2005-ci ildən başlayaraq əmanətlərin sığortalanması mexanizminin işə düşməsi ilə bağlı bank sisteminə etimadın xeyli yüksələcəyi və nəticədə onun depozit bazasının kəskin artacağı ehtimallarına söykənir. Bankın hesablamalarına görə bu dövrdə cəmi depozit bazasının illik artım tempi 35-37% səviyyəsində olacaqdır. Apardığımız hesablamalar göstərir ki, nəticədə bu dövrdə pulun dövretmə sürətinin orta illik göstəricisinin M2 aqreqatı üzrə azı 10-12%, M3 aqreqatı üzrə isə 15-20% yaxşılaşacağı gözlənilir (cədvəl 2). Beləliklə, iqtisadi təhlükəsizlik nöqteyi-nəzərindən ölkəmizdə pulun dövretmə sürəti astana kəmiyyətinə yaxınlaşacaqdır.

Cədvəl 2.

2013-2015-ci illərdə Azərbaycan Respublikasının əsas monetar göstəriciləri üzrə proqnozların iqtisadi təhlükəsizliyin müvafiq astana kəmiyyətləri ilə müqayisəsi

| İqtisadi təhlükəsizliyin astana kəmiyyətlərinin adları | Ölçü vahidi | İqtisadi təhlükəsizliyin astana kəmiyyətinin səviyyəsi | Respublika üzrə indikatorların səviyyəsi | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
| 1. ÜDM-in həcmi | mln. man. | 27054 | 41574,7 | 51157,5 | 53995,0 | 56066,2 | 57622,3 | 62028,7 |
| o cümlədən adambaşına | man. | 7500 | 4439,9 | 3168,5 | 4439,9 | 4732,2 | 4957,7 | 5095,7 |
| 2. İllik inflyasiya səviyyəsi | % | 25 | 5,7 | 7,9 | 4,7 | 7-9 | 7-9 | 7-9 |
| 3. Manatın dollara nisbətən məzənnəsi | manat | x | 0,7989 | 0,7964 | 0,7848 | 0,7709 | 0,7680 | 0,7570 |
| 4. Monetizasiya səviyyəsi (M2-nin ÜDM-də xüsusi çəkisi) | % | 50 | 20,0 | 21,5 | 25,6 | 33,7 | 44,3 | 55,6 |
| 5. Xarici valyuta ilə depozitlərin məcmu pul kütləsinə (M3) nisbəti | % | 10 | 21,2 | 21,2 | 17,9 | 16,0 | 14,5 | 13,0 |
| 6. Pulun dövretmə sürəti (ÜDM-in M2-yə nisbəti) | dəfə | 2 | 5,0 | 4,7 | 3,9 | 3,0 | 2,3 | 1,8 |
| 7. Pulun dövretmə sürəti (ÜDM-in M3-ə nisbəti) | dəfə | 2 | 3,9 | 3,7 | 3,2 | 2,7 | 2,1 | 1,7 |
| 8. Valyuta ehtiyatlarının 3 aylıq idxala kifayətetmə dərəcəsi | % | 100 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |

Qeyd: Cədvəl Azərbaycan Respublikası Mərkəzi Bankının müvafiq illər üzrə materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Ölkənin maliyyə-bank sisteminin təhlükəsizliyinin daha da möhkəmləndirilməsi, bank xidmətlərinin əhəmiyyətli dərəcədə genişləndirilməsi, əhalinin və bütövlükdə iqtisadi sferanın maliyyə-bank xidmətlərinə çıxış imkanlarının artırılması, maliyyə sektorunun digər seqmentlərində və korporativ sektorun özündə ciddi islahatların həyata keçirilməsini və bu tədbirlərin qarşılıqlı əlaqələndirilməsini tələb edir. Bu məqsədlə aşağıdakı istiqamətlərdə islahatların aparılmasını təklif edirik:

- girov münasibətlərinin təşkilati-hüquqi bazasının möhkəmləndirilməsi;
- kreditorların hüququnun müdafiəsi, məhkəmə islahatlarının dərinləşdirilməsi;
- koprorativ sektorda fəaliyyət şəffaflığının artırılması və korporativ idarəetmə sistemlərinin tətbiq edilməsi;

- bütövlükdə iqtisadi sferada azad və ədalətli rəqabət mühitinin inkişaf etdirilməsi.

Dissertasiyada xarici iqtisadi fəaliyyət sahəsində makroiqtisadi səviyyədə iqtisadi təhlükəsizliyin təmin edilməsinin əsas istiqamətləri və təkmilləşdirilməsi yolları göstərilmişdir. Bu sahədə iqtisadi təhlükəsizliyin təmin edilməsi üçün ölkə iqtisadiyyatının ciddi olaraq struktur cəhətdən yenidən qurulması, müxtəlif tənzimləyicilərlə (bazar və inzibati) dövlətin struktur, sənaye və xarici-iqtisadi siyasətinin əlaqələndirilməsi vacibdir. Milli iqtisadiyyatın açıqlığı heç də xarici iqtisadi əlaqələrin liberallaşmasının sinonimi deyildir. Bu, bazar islahatlarının həyata keçirilməsinin vasitəsi yox, məqsədidir.

Xarici ticarət fəaliyyətində ölkənin iqtisadi təhlükəsizliyinin əsas amillərindən biri kimi mili valyuta məzənnəsinin sabitləşdirilməsi dövlətin maliyyə-valyuta siyasəti vasitəsilə həyata keçirilir. Dissertasiya işində ölkənin iqtisadi təhlükəsizliyi nöqteyi-nəzərindən dövlətin milli valyuta məzənnəsinin sabitləşdirilməsinə yönəldilmiş maliyyə-valyuta siyasətinin əsas hədəfləri aşağıdakı kimi ifadə olunmuşdur:

- gözlənilən inflyasiya meyllərini neytrallaşdırmaq yolu ilə milli valyutanın mübadilə məzənnəsinin sabitləşdirilməsinə nail olunması;
- valyuta bazarında tələb və təklif arasında qısamüddətli tərəddüdlərin aradan qaldırılması;
- iqtisadiyyatın “dollarlaşması” prosesinin stimullaşdırılması;
- respublikadaxili valyuta bazarının fəaliyyətinin və aparılan əməliyyatların əhatə dairəsinin genişləndirilməsi;
- cari əməliyyatlar üzrə manatın dönərliliyinin təmin olunması;
- dövlətin qızıl-valyuta ehtiyatlarının idarəetmə səmərəliliyinin yüksəldilməsi və onların etibarlı yerləşdirilməsinin təmin edilməsi.

Bütövlükdə valyuta ehtiyatlarının formalaşmasında, ölkənin iqtisadi qüdrətinin möhkəmlənməsində mühüm rol oynayan tənzimləmə vasitələrindən biri də valyuta nəzarətidir. Odur ki, mövcud qanunvericiliklə müəyyən edilmiş qaydada valyuta vəsaitlərinin respublikaya gətirilməsi və çıxarılması valyuta nəzarətinin optimal mexanizminin tətbiqini tələb edir.

Bununla yanaşı, ölkəmizin beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığın əsas istiqamətləri və perspektivdə bu əlaqələrin daha da inkişaf etdirilməsi məsələləri, Azərbaycan Respublikasının beynəlxalq iqtisadi inteqrasiya proseslərində iştirakı, beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilən layihələr haqqında ümumi məlumatlar, maliyyələşdirilən layihələrin iqtisadi səmərəsi, kreditlərin verilməsi mexanizmi və s. bu kimi məsələlər daim diqqət mərkəzində saxlanılmalıdır.

Dissertasiya işinin “Nəticə” hissəsində tədqiqat nəticəsində əldə edilmiş əsas nəticələr, irəli sürülən təklif və tövsiyələr konkret şəkildə şərh edilmişdir.

**Dissertasiyanın işlənməsi müddətində mövzu üzrə iddiaçının aşağıdakı elmi məqalələri çap olunmuşdur:**


1. Kazımov T.X., Eyvazov E.T. Xarici iqtisadi əlaqələrin nəqliyyat təminatının səmərəliliyi / Azərbaycan iqtisadiyyatının strateji problemləri. Azərbaycan Dövlət Neft Akademiyasında keçirilən respublika elmi-praktiki konfransın materialları. Bakı: 2002, s. 487-488.
2. Eyvazov E.T. Keçid iqtisadiyyatında mili iqtisadi təhlükəsizlik məsələsi / Azərbaycan Dövlət İqtisad Universitetində büdcə təyinatlı elmi-tədqiqat işlərinin yekununa həsr edilmiş elmi-praktiki konfransın materialları. Bakı: 2002, s. 283-286.
3. Eyvazov E.T. Mili iqtisadi təhlükəsizlik sistemi: nəzəri-metodoloji aspektlər // Azərbaycan Mili Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu. Mili iqtisadiyyatın problemləri (məqalələr toplusu), II buraxılış. Bakı: 2007, s. 70-78.
4. Eyvazov E.T. Azərbaycanda iqtisadi təhlükəsizlik sisteminin formalaşması xüsusiyyətləri // Azərbaycan Mili Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu. Milli iqtisadiyyatın problemləri (məqalələr toplusu), II buraxılış. Bakı: 2008, s. 36-42.
5. Eyvazov E.T. İqtisadi təhlükəsizlik səviyyəsinin müəyyən edilməsinin regional xüsusiyyətləri // Hüquqi dövlət və qanun jurnalı, 2008, №5, s. 38-42.
6. Эйвазов Э.Т. Стратегическая цель и механизмы обеспечения экономической безопасности в Азербайджанской Республике // Современные аспекты экономики, 2009, №6 (143), с. 279-288.
7. Eyvazov E.T. Qlobal böhran şəraitində maliyyə təhlükəsizliyinin təmin olunması xüsusiyyətləri // İqtisadiyyat və həyat, 2010, №1-2, s. 44-49.
8. Eyvazov E.T. Müasir şəraitdə iqtisadi təhlükəsizlik sisteminin formalaşmasının strateji məsələləri // İqtisadiyyat və həyat, 2010, №4-5, s. 33-39.
9. Эйвазов Э.Т. Обеспечение экономической безопасности Азербайджана в финансовой сфере // Економіка та держава. Міжнародний наукоио-практичний журнал, Украина, 2012, №11, с. 51-54.

Эйвазов Эльчин Тахмаз оглу

# ПРОБЛЕМЫ ФОРМИРОВАНИЯ СИСТЕМ НАЦИОНАЛЬНОЙ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ


## РЕЗЮМЕ

Актуальность работы обусловена необходимостью укрепления и развития систем национальной экономической безопасности.

Диссертационная работа состоит из введения, 3 глав, заключения и списка литературы.

В первой главе диссертации под названием «Теоретико-методологические аспекты формирования систем национальной экономической безопасности» изучены и выявлены сущности и содержание систем национальной экономической безопасности исхода из новых организационно-методических аспектах в условиях рыночных отношений. Разработаны концептуальные основы определения уровней экономической безопасности в соотвествии нынешними условиями.

Вторая глава диссертационной работы называется «Особенности формирования систем национальной экономической безопасности». Здесь выявлены и обоснованы особенности формирования систем национальной экономической безопасности на современном этапе. Анализированы и оценены сложивщиеся состояния безопасности финансово-банковской системы страны в зависимости от этапов экономической реформы. Изучены и выявлены факторы, воздействующие на уровень экономической безопасности, по происхождению и масштабу на сфере внешнеэкономической деятельности.

В третьей главе диссертационной работы, названной «Направления совершенствования систем национальной экономической безопасности в рыночных условиях» разработаны предложения по укреплению развитию систем национальной экономической безопасности, определены направления обеспечению финансовой безопасности Азербайджана для ближайшего времени. А также предложены научно-обоснованные меры по обеспечению националных экономических интересов в международных рынках.

В заключении отражены основные результаты и обобщение темы.

**Elchin Tahmaz oglu Eyvazov**

# THE PROBLEMS OF THE FORMATION OF NATIONAL ECONOMIC SECURITY SYSTEMS

Summary

The importance of this dissertation is characterized by the necessity of strengthening and development national economic security systems.

The dissertation consists of introduction, three chapters, conclusion and reference.

In the first part of the work titled "The theoretical and methodological issues of national economic security systems" the nature and content of national economic security systems based on new organizational-methodological aspects in the market terms are analyzed as well. The conceptual basis of defining the economic security level in accordance with the nowadays condition are developed.

The second part of the work titled as "The characteristics of the formation modern position of national economic security system".The characteristics of the formation of national economic security system in modern phase is defined and grounded here. Today's condition of the security of financial-banking systems of the country depending on the phases of the economic reforms is also analyzed. The factors influencing on the level of economic security, on the origin and scales of foreign economic activities are studied and determined.

In the third part of the work titled "The ways of improving of national economic security systems in market economy conditions" The recommendations for the improvement of national economic security system in accordance with the market relations and international experience are made by the author. The directions of supplying the financial security of Azerbaijan for the nearest future are argued in this dissertation.The scientific-based measures for ensuring the national economic interests in international markets are offered in the dissertation.

In conclusion the main and overall results of the research has been given.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**

**НАХЧЫВАНСКОЕ ОТДЕЛЕНИЕ**

*На правах рукописи*

**ЭЛЬЧИН ТАХМАЗ ОГЛЫ ЭЙВАЗОВ**

# ПРОБЛЕМЫ ФОРМИРОВАНИЯ СИСТЕМ НАЦИОНАЛЬНОЙ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ

Специальность: 5311.01 – Организация и управление предприятиями

**АВТОРЕФЕРАТ**

диссертации на соискание ученой степени доктора философии
по экономики

**НАХЧЫВАН – 2013**